


# "Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri"

Ədəbiyyat tariximizdə gözəl mahnılara, musiqi əsərlərinə əsas verən poetik nümunələr yaratmış görkəmli şairlərimizdən biri də Abdulla Şaiqdir. Onun şeirlərinin dil səlisliyi və rəvanlığı, bədii-ideyası hər zaman bəstəkarların diqqətini cəlb etmiş, bu əsərlərə emosional ruhlu musiqi əsərləri bəstələnmişdir.

Dekabrın 16-da Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri" kitabının təqdimat mərasimi oldu.

Not kitabı Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr edilib. Sənətkarın 130 illik yubiley tədbirləri silsiləsindən təşkil edilən kitabın tərtibatçısı Əməkdar incəsənət xadimi, bəstəkar Rəşid Şəfəqdir.

Tədbirdə çıxış edən A.Şaiqin mənzil muzeyinin direktoru Ülkər Talıbzadə kitabın ərsəyə gəlməsinə görə nazirliyə minnətdarlığını bildirdi. Qeyd olundu ki, kitabda Azərbaycan bəstəkarlıq məktəbinin bütün nəsillərini əhatə edən bəstəkarların musiqiləri yer alıb. Nəşrin əhəmiyyətli tərəfindən biri də odur ki, təqdim olunan əsərlərin əksəriyyəti ilk dəfədir ki, nəşr edilir: "İnanırıq ki, kitab gənc nəslin tərbiyəsində, musiqi zövqünün inkişafında böyük rol oynayacaq".

Böyük ədibin sözlərinə musiqi bəstələmiş bəstəkarlardan Oqtay Zülfüqarov, Sevda İbrahimova, Tahir Əkbər və başqaları çıxış edərək kitabın əhəmiyyəti haqqında fikirlərini çatdırdılar.

Sonda şairin sözlərinə bəstələnmiş mahnılar səsləndi.

**Lalə Azəri**